# Yeni nəhəng elektrik stansiyasının açılışı tarixi hadisədir

**"8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək". Bu fikirləri Prezident İlham Əliyev Mingəçevirdəki "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində deyib. Qeyd edib ki, ümumilikdə bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir.**



## *Azərbaycan dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyini təmin edir*

Bu gün “8 Noyabr” elektrik stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. Hazırda Mingəçevirdə elektrik enerjimizin 40 faizdən çoxunun istehsal olunduğunu vurğulayan dövlətimizin başçısı əlavə edib ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir.

**(davamı 11-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

"8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso, İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri, Çinin "Dongfang" şirkətinin İdarə Heyətinin sədri Çen Qianq, "AzərEnerji" ASC-nin enerjinin istehsalı operatorunun direktoru Üzeyir Yusifov çıxış etdilər. Sonra Prezident İlham Əliyevin və İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso stansiyanın iştirakı ilə açılış oldu.

Azərbaycanın enerji sektorundakı mühüm hadisələrdən biri də 2025-ci il iyunun 24-də rəsmi açılışı keçirilən "8 Noyabr" Elektrik Stansiyasıdır. Mingəçevirdə yerləşən və ümumi gücü 1880 MVt olan bu stansiya Azərbaycanın müstəqillik dövründə inşa edilən ən iri elektrik enerjisi istehsalı müəssisəsi kimi ölkənin enerji tarixində xüsusi yer tutur. Layihənin strateji əhəmiyyəti ondan ibarətdir ki, bu stansiya təkcə ölkənin daxili enerji tələbatının ödənilməsində deyil, həm də ixrac potensialının artırılmasında mühüm rol oynayacaq. Prezident İlham Əliyevin 2022-ci ildə imzaladığı Sərəncama əsasən inşasına başlanan bu layihə rekord sayılacaq müddətdə - cəmi iki il ərzində uğurla başa çatdırılıb. Layihənin hazırlanması və icrasında Azərbaycanın mühəndisləri əsas rol oynayıb və texniki həllər dünya təcrübəsi ilə uzlaşdırılaraq, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə həyata keçirilib. Stansiyanın tikintisində İtaliyanın "Ansaldo Energia" və Çinin "Dongfang" şirkətləri ilə yanaşı, yerli ixtisaslaşmış BCC Group da iştirak edib ki, bu da Azərbaycanın enerji sektorunda milli kadr potensialının və sənaye imkanlarının sürətlə inkişaf etdiyini təsdiqləyən əhəmiyyətli göstəricidir. Bu stansiya Azərbaycanın daxili enerji təminatı, həm də enerji ixrac potensialının artırılması baxımından əhəmiyyətlidir. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, bu stansiya ölkəmizin enerji potensialını təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq. Həmçinin Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi statusunu daha da gücləndirəcək.

Mingəçeviri Cənubi Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümummilli Liderin rəhbərliyi və təşəbbüsü ilə 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulmuşdur. 1981-ci ildə stansiyanın birinci blokunun Heydər Əliyevin şəxsən iştirakı ilə açılışı olmuşdur. Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkəmizin nəinki enerji potensialını, ümumiyyətlə, sənaye potensialının böyük hissəsini ödəyərək imkan verdi ki, hətta müstəqilliyimizin ən ağır illərində, Azərbaycanda elektrik enerjisi ilə təchizat təmin edilsin. Əsas yükü o zaman məhz Mingəçevir Elektrik Stansiyası öz üzərinə götürmüşdü.

Azərbaycan son illər ərzində Prezident cənab İlham Əliyevin uğurlu siyasəti sayəsində hərtərəfli inkişaf yolu keçib, enerji təhlükəsizliyi baxımından Avropa ölkələri üçün böyük əhəmiyyət kəsb edən strateji tərəfdaşdır. Ölkəmizdə icra edilən elektrik enerjisi layihələrinin sırasına 2023-cü il fevralın 13-də biri də əlavə olundu. Həmin gün müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimi keçirildi. Bu istilik elektrik stansiyası Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı sərəncama əsasən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan Mingəçevirdəki "Azərbaycan" İES-in ərazisindədir. Mərasimdə qeyd olundu ki, bu məqsədlə yeni elektrik stansiyasında İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan 4 qaz turbini, 4 generator, Çinin "Dongfang Electric" şirkətinin istehsalı olan 4 util qazan və 4 blok transformator quraşdırıb. Beləliklə, Azərbaycanın enerji sistemində 1280 meqavatlıq yeni və nəhəng elektrik stansiyası yaradıldı.

İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. Azərbaycanla İtaliya arasındakı yaxın münasibətlər 44 günlük Vətən müharibəsi dövründə də öz təsdiqini tapdı. İtaliya şirkətləri hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında və bərpasında fəal iştirak edirlər. İki ölkə arasında əlaqələr böyük coğrafiyanın maraqlarını təmin edir. Əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir.

İtaliya və Çinlə strateji tərəfdaşlıq haqqında bəyannamələrin imzalandığını deyən dövlət başçısı vurğulayıb ki, onun həmin ölkələrə çoxsaylı səfərləri nəticəsində bir çox istiqamətlər üzrə gözəl nəticələr əldə edilmişdir. İtaliyanın Azərbaycanın bir nömrəli ticarət tərəfdaşı olduğunu söyləyən Prezident İlham Əliyev Çinin də ticarət tərəfdaşlarımız arasında qabaqcıl yerlərdə olduğunu diqqətə çatdırıb. Dövlət başçısı qeyd edib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və Avropa İttifaqı Azərbaycanı etibarlı tərəfdaş və pan-Avropa qaz təchizatçısı adlandırır. Azərbaycan qazının kəmərlər vasitəsilə 12 ölkəyə ixrac edildiyini deyən dövlət başçısı bildirib: "Məhz bu göstəriciyə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, bir çox ölkələr Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir".

Xəzər dənizi və Avropa arasında yaşıl enerji kabeli layihəsi Azərbaycanın regional enerji mərkəzinə çevrilməsi istiqamətində strateji layihələrdən biridir. "Qara dəniz yaşıl kabeli" kimi tanınan bu layihə vasitəsilə Azərbaycan Gürcüstan və Qara dəniz üzərindən Rumıniyaya və Macarıstana yaşıl enerji ixrac etməyi hədəfləyir. Layihənin həyata keçirilməsi Avropa İttifaqının enerji təhlükəsizliyi siyasəti ilə üst-üstə düşməklə, Azərbaycanın həm Cənubi Qafqaz, həm də Avropa enerji məkanındakı rolunu daha da gücləndirəcək. Bu cür beynəlxalq təşəbbüslər ölkənin enerji sahəsindəki strateji nüfuzunu artırmaqla yanaşı, ekoloji təhlükəsizlik və regional sabitlik baxımından da mühüm əhəmiyyət daşıyır.

Ötən əsrin sonunda Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılması ilə Azərbaycan ixraca başladı və bir çox ölkələrin tələbatını təmin etdi. Trans-Adriatik Qaz Boru Kəməri (TAP) İtaliya və Azərbaycan arasında əlaqələri gücləndirib, ancaq enerji sahəsində əməkdaşlıq üçün başqa imkanlar da mövcuddur. Azərbaycan ənənəvi olaraq İtaliyanın əsas neft təchizatçılarından biridir. 2020-ci ilin dekabrında TAP-ın işə salınmasından sonra ölkə İtaliyanın ikinci ən böyük qaz təchizatçısına çevrilib. TAP layihəsi Azərbaycanın təbii qazını İtaliyaya və digər Avropa ölkələrinə çatdıran əsas kəmərdir. İtaliya ölkəmiz üçün həm təbii qaz, həm də neft ixracatında əsas ticarət tərəfdaşlarından biridir. Bu əməkdaşlıq Azərbaycanın enerji sektorunun inkişafına və iqtisadiyyatının güclənməsinə kömək edir. Bununla yanaşı, hər iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir.

İtaliya və Azərbaycan arasında enerji əməkdaşlığı yalnız karbohidrogen sektoru ilə məhdudlaşmır. Belə ki, İtaliyanın "Ansaldo Energia" şirkəti Mingəçevirdə Azərbaycanın ən böyük elektrik stansiyasının modernizasiyası üzrə böyük layihə həyata keçirir. Bu da ölkənin elektrik enerjisinə olan tələbatının 20 faizdən çoxunu təmin edir. Ötən il COP29 çərçivəsində bir neçə İtaliya şirkəti iqtisadiyyatın və enerji təchizatı mənbələrinin şaxələndirilməsi prosesinə dəstək vermək üçün azərbaycanlı tərəfdaşlar ilə ticarət sazişləri imzalayıb. İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən "yaşıl texnologiya-ya", istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərirlər. İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində İtaliya dost ölkə olaraq öz töhfəsini verir. Belə ki, İtaliya şirkətləri işğaldan azad olunmuş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib. İtaliyanın daha bir şirkəti Şuşada yeni məscidin layihəsini dizayn edib. Görülən işlər və layihələr bu əlaqələrin davamlılığını göstərir.

Azərbaycan Çin ilə ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verir və əlaqələrin bütün sahələr üzrə genişləndirilməsində maraqlıdır. İki ölkə arasında mövcud fəal siyasi dialoq nəticəsində energetika, iqtisadi-ticari, rabitə-kommunikasiya, nəqliyyat-logistika, turizm və humanitar sahələrdə ciddi nailiyyətlər əldə edilir, iki ölkə arasında əməkdaşlığın səviyyəsi genişlənir, münasibətlər yüksələn xətlə inkişaf edir. Bu ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanması münasibətləri yeni mərhələyə yüksəldib. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri güclənir. Bu ilin yanvar-aprel aylarında Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşı olan Çinlə ticarət dövriyyəsi 37 faiz artaraq 1,4 mlrd. ABŞ dollarını ötüb. Çin şirkətlərinin ölkəmizdə "yaşıl enerji", avtomobil istehsalı, İKT, nəqliyyat və digər sahələrdə reallaşdırılan layihələrdə aktiv iştirakı, həmçinin həyata keçirilən təcrübə mübadiləsi yüksək qiymətləndirilib.

Çin Azərbaycanla əlaqələrə xüsusi maraq göstərən ən fəal dövlətlərdən biridir və onun ölkəmizə, Xəzər hövzəsinə marağı təbii qarşılanır. Çünki son illər ərzində sürətlə inkişaf edən Çin üçün xammal və enerji mənbələri xüsusi əhəmiyyət daşıyır. Zəngin karbohidrogen ehtiyatlarına malik, eyni zamanda, strateji nəqliyyat-tranzit qovşağına çevrilən Azərbaycanla əlaqələrin daha da genişləndirilməsi rəsmi Pekinin diqqət mərkəzindədir. Azərbaycan iqtisadiyyatının lokomotivi olan neft sektoruna Çin şirkətləri böyük maraq göstərirlər.

"Dongfang Electronics Corporation" qlobal səviyyədə tanınmış Çin enerji şirkəti dünyanın 50-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət elektrik-paylayıcı və ötürücü sistemlər üzrə tam sənaye zəncirinə və həll yollarına malikdir, həmçinin "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulması və tikintisi, elektrik SCADA sistemlərinin inkişafı və tətbiqi, "yaşıl enerji"nin inkişafı və tikintisi sahəsində zəngin təcrübəyə sahibdir. Qeyd edək ki, Dongfang Electronics" şirkəti "ağıllı şəbəkə" sistemlərinin yaradılması və idarə edilməsi sahəsində böyük təcrübəyə malik olmaqla, bu yöndə bir çox ölkələrdə uğurlu layihələr həyata keçirib. Bundan başqa, şirkət günəş panellərinin, enerji saxlama sistemlərinin və SCADA vasitəsilə idarəetmə həllərinin istehsalında ixtisaslaşıb. Bu sistemlərin tətbiqi ilə enerji istehlakında qənaət təmin olunur. Buna misal olaraq, Ukraynada enerji saxlama deposu və Şandonq əyalətində 22 MVt gücündə günəş örtüyü panelləri layihələri uğurla reallaşdırılıb.

Azərbaycan enerji siyasəti sahəsində həm bərpaolunan, həm də ənənəvi enerji mənbələrinin səmərəliliyinin artırılması istiqamətində mühüm addımlar atıb. Xüsusilə Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi, Günəş və külək elektrik stansiyalarının təməlinin qoyulması, hidroenerji potensialının reallaşdırılması, böyük həcmli beynəlxalq investisiya müqavilələrinin imzalanması və regional enerji təhlükəsizliyinə töhfə verən layihələrin icrası bu sahənin prioritet olduğunu təsdiqləyir. Azərbaycan bərpaolunan enerji sektorunda da ardıcıl və məqsədyönlü siyasət yürüdərək, bu sahədə ciddi irəliləyişlərə imza atıb. Xüsusilə son 3 ildə bir sıra iri enerji layihələrinin icrası və beynəlxalq əməkdaşlıqlar ölkənin yaşıl enerji potensialını reallaşdırmaq istiqamətində mühüm mərhələ təşkil edir. Bu prosesdə Azərbaycanın enerji diplomatiyası da mühüm rol oynayır. COP29-un Bakıda keçirilməsi ölkəmizin "yaşıl enerji" siyasətinə və ekoloji təşəbbüslərinə beynəlxalq diqqəti daha da artırıb. Bu tədbir çərçivəsində Azərbaycan dünyanın qabaqcıl enerji şirkətləri, beynəlxalq maliyyə institutları və ekoloji təşkilatları ilə yeni tərəfdaşlıqlar qurmaq, "yaşıl enerji" texnologiyalarının tətbiqini genişləndirmək və beynəlxalq "yaşıl maliyyə" resurslarına çıxış imkanlarını gücləndirmək imkanı qazanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu həm regional sabitliyin təmin olunmasında, həm də ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin praqmatik düşüncəyə və milli maraqların qorunmasına əsaslanan xarici siyasəti Azərbaycanı beynəlxalq müstəvidə mühüm uğurlara çatdırıb. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirib ki, bu da geosiyasi qeyri-sabitlik dövründə xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionda ən güclü və yüksək beynəlxalq nüfuza malik olan aktora çevrilib. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilir və əhəmiyyətli uğurlar qazanılır.

Bütün bunlar belə deməyə əsas verir ki, Azərbaycan enerji siyasətində yeni mərhələyə qədəm qoyur. Bərpaolunan enerji layihələri ilə yanaşı, "8 Noyabr" kimi müasir və səmərəli stansiyalar enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, enerji ixrac imkanlarının genişləndirilməsinə, ətraf mühitin mühafizəsinə və regionda iqtisadi əməkdaşlığın güclənməsinə mühüm töhfələr verir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 25 iyun (№ 129).- S.1;11.